# MARAQLI GÖRÜŞ

*hekayə*



Tofiq ƏMRAHOV

Onuncu sinfə keçmişdik. On bir nəfər idik. Yeddi oğlan, dörd qız. Hamı yaxşı oxumaq, təhsil almaq istəyində olanlardı. İçərimizdə Qaraş adlı birisi son aylarda yaman dəyişmişdi. Gözlərinin içi qıp-qırmızı olur, dərslərdə özünü düzgün aparmır, müəllimlərə atmacalarla mane olurdu.

Sayalı mənimlə bir sırada otururdu. O, çox tərbiyəli qız idi, dərslərdə həmişə əla qiymətlər alardı. Həm müəllimlər və həm də biz şagirdlər ona qibtə edərdik. Bir sözlə, çox ağıllı bir qız idi Sayalı. Sadə kəndli ailəsinin qızı idi.

Günlərin bir günü Qaraş bizim arxamızda olan partada əyləşdi. Sonrakı günlərdə yavaş-yavaş Sayalıya atmacalar atır, onun dərs oxumasına maneəcilik törədirdi. Bir gün mən ondan soruşdum:

- Qaraş sənin gözlərin niyə qıpqırmızı olur? Təzyiqin yoxdur ki?

-Təzyiq nədir ə, təzyiq sənin olsun! Nədir, sən o gülməşəkərlə oturandan nə dost tanıyırsan, nə yoldaş! Nə olub sənə?

- Mənə? Mənə heç nə olmayıb. Bəs sənə nə olub, yaman dəyişmisən.

Təkrarən soruşdum, Qaraş, gözlərinə nə olub? Yuxusuz kimi olursan, elə bil çox işləyib yorulmusan.

- Ayə, belə mən həyatın dadını çıxarıram ey, dadını!

- Başa düşə bilmirəm, necə yəni həyatın dadını çıxarıram?! Heç cür anlaya bilmirəm, Qaraş!

- Hardan başa düşəcəksən, ay yazıq. Günün kitab tozu yeməklə keçir, oxumaqdan, yazmaqdan başın açılır ki!

- Oxumalıyıq da Qaraş! Bəs nə etməliyik, gələcəyimiz oxumağımızdan, asılıdır. Qaraş sən mənim canım, məni başa sal görüm, o həyatın dadını çıxarmaq nə deməkdir?

- Həqiqi bilmək istəyirsən?

- Həqiqi bilmək istəyirəm, Qaraş! Həyatın dadını kim dadmaq istəməz ki!

- Dərsdən sonra görüşərik, həmin dadı sənə daddıraram.

Dərsdən çıxan kimi Qaraş mənim qoluma girib, məktəbin həyətyanı sahəsinə apardı. Cibindən bir papiros çıxarıb yandırdı, bir-iki qullab vurdu, qalanını isə mənə al sovur, tüstüsünü içəriyə ötür, həyatın dadı bax orda olacaq, dedi.

Birdən elə bil yuxudan ayıldım. Nə, papiros çəkmək? Papirosun tüstüsü ilə həyatın dadını çıxarmaq?! Deməli, Qaraş çəkdiyi tiryəkdir. Deyəsən, bunu kinolardan eşitmişdim.

- Xahiş edirəm, Qaraş, bu yoldan əl çək. Bu yol səni uçuruma aparacaq. Elə uçurum ki, onun ucu-bucağı görünməyəndir. Sənin gül kimi ətirli, sular kimi dum-duru qəlbini çirkləndirməyə mən heç vaxt razı ola bilmərəm. Axı, biz neçə illərdi ki, bir yerdə oxuyuruq, yoldaşlıq edirik! Olmaz, Qaraş olmaz, vallah olmaz! Sənin bu çirkin adətin ətrafında olan bizləri də çirkləndirəcək. Bu yoldan əl çək!

- Sən nə danışırsan ə, sən həyatın mənasını, deyəsən, ancaq dərs oxumaqla, ali təhsil almaqla görürsən. Yox, yox! Bunlar hamısı cəfəngiyatdır. Bu beş günlük etibarsız dünyada, ancaq kef çəkmək, ləzzət almaq lazımdır. Həyatın mənası yalnız budur.

- Nə deyirəm Qaraş, təki sən deyən olsun. Ancaq onu bil ki, vaxt gələcək peşman olacaqsan. Onda artıq gec olacaq. Bundan sonra isə Qaraş, səninlə mənim yoldaşlığım tutmaz. Əlvida Qaraş, dedim!

* * *

Dərs ili yekunlaşırdı. Sinif rəhbərimiz bir-bir bizdən həyatımızı necə quracağımız, hansı ali məktəbə iş verməklə, hansı ixtisas sahibi olacağımızla maraqlanırdı.

Mən kənd təsərrüfatı mütəxəssisi olmaq istədiyimi, Sayalı hüquqşünas, o biri şagirdlər isə hərəsi bir sənət sahibi olmaq istədiklərindən danışırdılar. Bir sual da Qaraşa yönəldi. O, nə qədər istədi sualdan yayınsın, müəllimə isə cavab almaq üçün təkid etdi. Və həm də dedi ki, Qaraş, sən son vaxtlar gözümə birtəhər dəyirsən. Nə olub, həyatında pis bir hadisə baş verməyib ki?

- Xeyir, müəllim! Heç nə baş verməyib. Sadəcə olaraq həyatımı başqa cür qurmaq fikrindəyəm. Oxumayanlar acından ölmür ki, mən də öləm. Yaxşı dostlarım var. Onların da öz böyük "kruqları". Nə deyim, sağlıq olsun, mənim kim olduğumu sonra biləcəksiniz.

- Lap yaxşı Qaraş! Mən bir müəllim kimi şagirdlərimin gələcəklərinin xoşbəxt olmasını arzulayıram. Müəllim üçün bundan gözəl arzu olarmı?!

Beləcə, sinif rəhbərinin sorğusualı başa çatdı. Zəng çalındı, tənəffüsə çıxdıq. Ancaq Qaraş sinifdən bayıra çıxmadı. Qapını açdım ki, o, nə isə yazır. Fikirləşdim, nəyimə gərəkdir, nə yazır qoy yazsın. Dəhlizə çıxıb növbəti zəngin vurulmasını gözlədim. Zəng çalındı, sinfə daxil olduq. Sayalı kitabı açan kimi bir yazılı vərəq gördü. İstədi məndən gizlətsin, ancaq mənim bildiyimi görüb qatlayıb mənə tərəf itələdi. Vərəqə yazılmışdı, cənab prokuror, mən səni sevirəm! Cavab gözləyirəm, Qaraş! Hirsimi zorla cilovladım. Ona tərəf çönüb kinli baxışla onu süzdüm. Mənim hirsimi və hərəkətlərimi duyan Sayalı onun yazısının arxa tərəfində qalan boş yerə bu sözləri yazıb mənə tərəf sürüşdürdü: "Ədəbi kimdən öyrənirlər? Ədəbsizlərdən! Hər şeyin arxasında səbir durur, səbirli ol".

Beləcə hirsim soyudu, özümə gəldim.

Növbəti günlərdə dərs vaxtı Qaraş gah Sayalının saçından arxaya çəkir, gah söz atır və "cavab gözləyirəm", deyirdi. Sayalı isə, mənə yavaşca təmkinli, səbirli ol deyirdi. Sayalının belə səbirli olmasına qibtə edirdim.

Bir dəfə də yazmışdı:

- Sənlə görüşmək istəyirəm, yoldaş PROKUROR! Sayalı isə arxasında yazıb qaytardı: Sağlıq olsun, görüşərik, görüşərik!

Düzü Sayalının bu cavabını anlaya bilmədim. Özündən soruşdum:

- Sayalı, bu nə cavabdır? O isə mənə, bir neçə ildən sonra anlayacaqsan, dedi.

Beləcə orta məktəb həyatımız arxada qaldı. Ali məktəb həyatı başlamış, hər kəs öz istədiyi sənətə yiyələnmək üçün təhsillərini davam etdirirdi. Uşaqların əksəriyyəti institutlara, bəziləri isə texniki peşə məktəblərinə qəbul olunmuşdular. Qaraşla əlaqəmiz kəsilmişdi. Yeqin ki, köhnə sənətini davam etdirirdi.

* * *

Yay tətili vaxtı hamımız kəndə gələr, tez-tez görüşüb dərdləşərdik.

Bir gün Sayalı ev telefonumuza zəng etdi. Yenidən hal-əhval tutduq və sonra o mənə:

- Qardaş, bilirsən səni niyə narahat etmişəm?

-Bu nə sözdür Sayalı, sən mənim bacımsan, nə sözün varsa buyur de.

- Qardaş, sənə bir əziyyət verəcəm.

- Buyur, dedim.

- Sizin qonşu məhəllədə əkilmiş lobya ləklərinin arasında zəfəran bitkisinə oxşar bir bitki əkilib, heç kəsə bildirmədən onun budağından birini qoparıb mənə gətirərsən?

- Bu nə sözdür, əlbəttə, gətirərəm!

Elə gecə ikən gedib həmin gül kolunun birini dibindən çıxarıb, işıqda o yan-bu yanına baxıb heç nə başa düşmədən aparıb Sayalıya verdim. O, gülümsəyib, sağ ol, qardaş sənə də əziyyət verdim.

- Nə əziyyət bacı, borcumdur. Sayalı getmək istədi, lakin nə fikirləşdisə qayıdıb:

- Sən kənd təsərrüfatı mütəxəssisi olacaqsan, neçə vaxtdır oxuyursan, səncə bu bitkinin adı nədir?

- Sayalı, yalan deməyi xoşlamıram, doğrusu, bilmirəm. O, isə gülümsəyərək, elə tanımağın yaxşıdır. Onu Qaraş kimiləri çox gözəl bilir, - dedi. Bu sözdən sonra o bitkinin nə olduğunu nəhayət ki, anladım.

* * *

İllər ötüb keçir, zaman bizi öz ağuşuna alıb aparırdı. Hara aparırdı bilmirdk. Onu bilirdim ki, sabaha doğru gedirik.

SABAHA gedən yol dünəndən və bu gündən keçir. Dünən şagird idik, bu gün tələbə, sabah isə...

Bəli, sabahlar açıldı. Təyinat alıb hərə bir yerdə əmək fəaliyyətinə başlamalı oldu. Başım işə elə qarışmışdı ki, yoldaşlarımızla da əlaqə saxlamaq unudulmuşdu.

Bir dəfə tütün sahələrini gəzərkən gözümə inanmadım, həmin o bitki idi, o vaxt Sayalı mənə dediyi. İndi yəqin etdim ki, o narkotik tərkibli bitkidir. Öyrəndim ki, bu sahə Qaraşın bacısının tütün sahəsidir. Deməli, bu hamısı Qaraşın və qaraşkimilərin işidir. Dizlərimi yerə qoyub bunların hamısını yolub kənara çıxardım. Üstünü də kol-kosla basdırıb evə qayıtdım. Özümdə deyildim. Üzü üstə çarpayıya uzandım. Fikir məni götürmüşdü. Nə etməli? Cəld ayağa qalxdım. Boş bir un torbasını götürüb həmin sahəyə getdim. Çıxardıqlarımın hamısını torbaya doldurub, ağzını bərk-bərk bağlayıb gizlətdim. Sahələrin qalan yerlərinə baş çəkib bəzi qeydlərimi etdim. Elə yerlər var idi yarpaqlar dərilməli, elə sahələr var idi alağı vurulmalı idi... Birdən yadıma düşdü ki, neçə illər bundan əvvəl Sayalının mənə dediyi o lobya ləklərinin arasına bir də baş çəkim. Getdim və gözlərimə inanmadım. İlahi mən nə görürəm! Əvvəlkindən qat-qat çox əkilmiş, çiçəkləri tökülüb, xırda-xırda meyvəciklər əmələ gəlmişdi.

Deməli, Qaraş bunun hesabına özünə "bərk gedən" maşın almış, gününü yemək-içməklə keçirir. Günorta yeməyi də yadıma düşmürdü. İştahım tamam küsmüşdü. Qərara gəldim ki, evə qayıdım. Evə qayıtdım, iştahasız bir az nahar edib həyətə çıxdım. Bu vaxt ev telefonumuz zəng çaldı.

- Sayalıdır danışan! Qardaş necəsən?

- Çox yaxşı, çox yaxşı! Bacı, sən, necəsən?

- Şad oldum səsini eşitdiyimə, iş başımızı elə qatdı ki, bir-birimizin halını da soruşa bilmirik.

- Bağışla Sayalı, sən məndən etibarlısan!

- Elə demə, qardaş! Sən mənim həqiqi qardaşımsan! Sədaqətli, səxavətli!

- Bacı yenə köhnə yerindəsənmi? İşlərin necə gedir?

- Qardaş, işlərim yaxşıdır. Çətindir, ancaq maraqlıdır. Özüm də bir aydan çoxdur ki, sizin qonşu rayonda işləyirəm. Sağlıq olsa görüşərik. Məndə öz növbəmdə sağlıq olsun, dedim.

Bu zəngdən sonra bir az rahatlandım. Ancaq gördüklərim məni rahat buraxmırdı. Deməli, Qaraş kimiləri kəndimizin neçə-neçə gəncini öz torlarına salacaq, onların həyatlarını da puç edəcəklər?!

Aradan bir neçə gün keçmişdi. Adətim üzrə tütün, tərəvəz sahələrini gəzir, işçilərə bəzi tapşırıq və tövsiyələrimi verirdim. Bu vaxt kənd Sovetinin işçisi gəlib məni sahədə tapdı:

- Sizi idarəyə çağırırlar. Sahədən bir baş idarəyə getdim. Kənd sovetinin idarə binası kəndin ortasında yerləşirdi. İdarənin həyətində bir dəstə adam toplaşıb yaman pıç-pıç edirdilər. Öz-özümə fikirləşirdim ki, görəsən, nə olub, nə hadisə baş verib? Məni niyə çağırıblar?

İçəri keçib katibədən soruşdum:

- Məni kim çağırıb?

- O, isə xahiş edirəm keçin sizi gözləyirlər, - dedi.

Otağa keçdim. İki nəfər polis zabiti Qaraşdan izahat götürürdülər. Mən özümü təqdim etdim: Aqronomam.

- Məlumatımız var, qiyabi də olsa sənin haqqında bilirik. Sorğularını isə davam etdirirdilər: de görək o bitkiləri harda əkib becərirdin və nə məqsədə?

Yazılı izahat başa çatdı. Müstəntiq üzünü mənə tutub:

- Hörmətli aqronom, siz də bir mütəxəssis kimi axıra qədər bizimlə olacaqsınız, dedi.

Özləri ilə fotoaparat da gətirmişdilər. Qaraşın qolu qandallı, idi. Beləcə Qaraş bitkiləri harada əkdiyini bir-bir göstərir, kimlərlə becərdiyini söyləyirdi. Şəkil çəkən isə öz işini görürdü.

Müstəntiq üzünü mənə tutub:

- Yoldaş aqronom, Qaraşın bu işlərindən xəbəriniz varmı? Əgər varsa niyə məlumat verməmisiniz?

Doğrusu, mən tutuldum, nə deyəcəyimi bilmədim.

Müstəntiq isə mənə:

- Yaxşı, sualın cavabını baş müstəntiq Sayalı xanıma verərsən, - dedi.

İşin nə yerdə olduğunu anladım. Deməli, Sayalı...

İş yekunlaşdıqdan sonra milis işçiləri ilə birlikdə qonşu rayonun prokurorluğuna getməli olduq. Çatdıq. Milis zabiti otağa daxil olaraq lazımi raportunu verib dəhlizə çıxdı:

-Yoldaş aqronom, siz Qaraşla içəri keçin!

Keçdik. Allah kəssin elə keçməyi ki, biz keçirdik. Qaraş yamanca büzüşmüşdü, özündə deyildi.

Sayalı xanım mənimlə hal-əhval tutduqdan sonra üzünü Qaraşa tutub dedi:

- Mən sənə söz vermişdim ki, görüşərik. Çox şadam ki, görüşdük, sözümə əməl etdim. Qaraş, sən bizim rayonun bir-neçə vətəndaşına külli miqdarda narkotik maddələr satmaqda və onları bu işlərə təhrik etdiyin üçün saxlanılmısan. Bundan əlavə, bir vətəndaşımız isə həmin maddələrdən yüksək doza qəbul etdiyi üçün dünyasını dəyişib. Bunlar hamısı sənin çirkin əməllərinin nəticəsidir. Lakin, sən tək deyilsən öz sözlərinlə desək, "kruqun " böyükdür. Sənin o "kruqunu" zərərsizləşdirmək isə biz hüquq işçilərinin vəzifə borcudur. Sizin bu zərərli vərdişlərinizə qarşı amansız olacağıq. Törətdiyin əməllər faktlar və izahatlarla tam sübuta yetirilir. Lakin səninlə birlikdə olanların tutulub istintaqa verilməsi üçün qaldırılmış cinayət işinin davamını özüm aparacağam.

Sonra o, əmr etdi:

- Aparın onu!